# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 169** **Bakı şəhəri, 26 may 2023-cü il**

***"Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 may tarixli 186 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 16-cı hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 may tarixli 186 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 946; 2017, № 8, maddə 1607; 2018, № 11, maddə 2422) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin kollegiya üzvlərinin sayı 11 (on bir) nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavinləri

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının rəhbəri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının Sosial statistika şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin direktoru.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Xalq qəzeti .- 2023.- 31 may.- S.14.